# Naxçıvanla bağlı əmək və mərasim nəğmələri

**Əcdadlarımızın oturaq həyata keçməsində əməyin, o sıradan əkinçiliyin rolu böyükdür. İnsanın bədii fəaliyyəti əməklə bağlı sinifli cəmiyyətin yaranmasından daha əvvəl əmələ gəlmişdir. Bununla bağlı ilkin əmək nümunələri, inkişafın müəyyən mərhələsində isə mərasim nəğmələri yaranmışdır. Naxçıvan bölgəsində də ta qədimdən belə nümunələr, yaxud onların variantları meydana çıxmışdır. Şübhəsiz ki, regionda yaranmış əmək nəğmələrinin ilkin nümunələrinin çoxu dövrümüzə gəlib çatmamışdır. Məlumdur ki, ilkin əmək nəğmələri forma və məzmundan cox ritmə, ahəngə uyğun olmuşdur. Bunu əldə olan bəzi arxaik folklor örnəkləri də deməyə əsas verir. Ahəngə uyğun əvvəl bir-iki, üç hecalı sözlər, sonra tədricən dörd hecalı bütöv misra və bəndlər yaranmışdır.**



Yeddi hecalı əmək nəğmələri isə bunlardan sonrakı dövrlərin məhsuludur. Belə örnəklər dolanışığı torpaqla bağlı olan qədim insanların zəhmətini, real həyat tərzini əks etdirir. Bu yazıda da Naxçıvan və onun bölgələrilə bağlı yaranmış əmək və mərasim nəğmələrinin bəzi nümunələri nəzərdən keçiriləcək.

*Əlincədə boz öküz,*
*Qaldırıbdı toz öküz,*
*Şumla yerin canını*
*Çıxsın yaman göz öküz.*

Yaxud:

*Əlincənin buludu,*
*Topa-topa buludu,*
*Tanrı bir yağış yetir*
*Zəmilərim qurudu.*

Hər iki regional nümunənin yarandığı dövrü müəyyən etmək çətindir. Lakin onların Əlincə ərazisi ilə bağlı yarandığı şəksizdir. Şəkli xüsusiyyətlərinə görə, bayatı şeir forması ilə eyni olan bu poetik nəğmələr kamil nümunələrdir. İkinci nəğmə mövsüm mərasimilə bağlı olduğundan əlincəli yağış yağdırmaq üçün söz vasitəsilə təbiətə təsir göstərmək istəyir. Məlumdur ki, əski çağlardan başlayaraq ilin quraq keçməməsi üçün bəzi ayin və mərasimlər keçirilib. Bunlardan daha cox tanınanı "Çömçəxatun" adlı mərasimdir. Mərasimdə yağış yağdırmaq məqsədilə deyilir:

*Çömçəxatun düz istər,*
*Çicək dolu düz istər,*
*Havaları buludlu,*
*Bol yağışlı yaz istər* (4, s. 23, 24).

Mütəxəssislərin fikrincə, yağış yağdırma ilə bağlı ayin və mərasimlər, adətən, müqəddəs sayılan Günəşə ehtiram əlaməti olaraq o batandan sonra icra olunarmış. Bu, antropomorf təsəvvürlə, günəşin canlı sayılması inamı ilə əlaqədardır (1, s. 189). Belə etiqadlar qədim türk, o sıradan Atropaten və Aran əsatirində özünü çox göstərir (3, s. 18).

Azərbaycanın Naxçıvan bölgəsində indi də ahıl və qoca qadınların düşüncəsinə görə, Günəş də, Ay da qadın-kişi şəklində canlı təsəvvür olunur. Belə düşüncəyə görə, lazım olanda Günəşi "dəvət etmək"lə yağışı kəsmək, yaxud quraqlıq keçəndə yağışı yağmağa "məcbur etmək" mümkündür. İnsanların təbiətə əfsunlar vasitəsilə təsir göstərmək, onu öz iradəsinə tabe etdirmək istəyi mənşə etibarı ilə çox qədimdir.

Əməklə bağlı yuxarıda verilən nəğmələr regionla bağlıdır. Təəssüf ki, regiona məxsus belə örnəklər əldə çox azdır. Bizcə, bu azlığın səbəbi iki amillə izah oluna bilər. Birinci, nəzərə alaq ki, əmək nəğmələrinin regionla, məkan və yer-yurdla bağlı olması ənənə deyil. Çox halda bunlarda yer-yurd adı çəkilmir. Odur ki, belə əmək və mərasim nəğmələrinin sayı az olur. Təbii ki, başqa janr nümunələri kimi, əmək və mərasim nəğmələri də öz inkişafında kütləvi yaradıcılıq məhsuluna çevrilir. Belə halda onların ilkin şəkli, onlarda yer adı varsa, dəyişə, yaxud unudula bilər. İkinci, nümunələrin vaxtında yazıya alınmaması onların az olan kəmiyyətlərinin bir qədər də azalmasına gətirir.

Regiona aid başqa bir əmək nəğməsində deyilir:

*Göy dağın bulaqları,*
*Göy bitib qıraqları,*
*Öldü cütün macqalı*
*Dağıldı hodaqları*

Göy dağ Əlincəçay və Gilançay suayrıcında, Boyəhməd (Culfa rayonu) kəndinin cənub-şərqində sərin bulaqlı və səfalı yaylaqları ilə tanınan bir yerdir.

Dağın maldarlıq və əkinçilik üçün də əlverişli sahələri az deyil. Ona görə, hansı vaxtsa, əkinlə məşğul olan insanlar bu əmək nəğməsini yaratmışlar(8, s. 172).

Haqqında söz açılacaq regionla bağlı mərasimlərdən biri "Xanbəzəmə"dir. "Xanbəzəmə" məişət mərasimidir. Mərasimin Ordubad variantına görə, "Novruz" şənliklərində şəhər meydanında bayram tədbiri keçirilir. Mərasimdə zorxanalar qurulur, nəğmələr oxunur, pəhləvanlar güləşir, sonra Kosa meydana çıxır. Kosa əlində qırmızı çömçə camaat arasında gəzib oynayır. Şənlikdə oxunan nəğmənin bir yerində Kosaya deyirlər:

*Xoşxanım dursun ayağa,*
*Kosaya pay versin ağa,*
*Ay əyni yaşıl çuxalı,*
*Culfalısan, ya buralı?*

Nəğmə oxunduqdan sonra Kosadan soruşurlar:

-Gəlişin hardan bəridir?
-Şərurdan.

Göründüyü kimi, mərasim coğrafi baxımdan Ordubad, Culfa və Şərur bölgələrilə bağlıdır.

Mərasimin sonunda Xan Kosa və Təlxəyin vasitəsilə güldürülür, lağa-məsxərəyə qoyulub taxtdan salınır. Onu da deyək ki, "Kosa" oyun-tamaşasının da bəzi detallarını özündə birləşdirən "Xanbəzəmə" mərasimi təkcə Ordubadda deyil, XX əsrin I yarısınadək regionun Nehrəm (Babək rayonu), Bənəniyar (Culfa rayonu) və digər böyük kəndlərində də keçirilmişdir.

Folklorumuzda "Xanbəzəmə", "Xan-xan" yaxud "Xan" adı ilə tanınan bu mərasim daha çox şənlik və bayramlarda icra olunub. Naxçıvan toylarında mərasimin bir qədər fərqli şəkildə icra olunan variantına "asma-kəsmə" də deyilir. Muxtar respublikanın bir çox dağətəyi kəndlərində indi də toy şənliyinin son axşamı keçirilən mərasimdə Təzəbəy Xan rolunda çıxış edir. Xan tərəfindən "günahlandırılan" bəzi adamlar "dar ağacından asılır", bəzisinin də guya "boynu vurulur". Mərasimdə cərimələrdən toplanmış pul və hədiyyələr sonrakı gün bəyin dost-tanışa verdiyi qonaqlığa sərf olunur.

"Xanbəzəmə" mərasiminin "Novruz" şənliklərində keçirilməsi təsadüfi deyil. Ehtimal ki, əski çağlarda yeni il şənliklərində "saxta hökmdar seçmək" adəti icra edilirmiş.

Bu adətə görə, "Novruz" günlərində xalqın şikayətləri dinlənmiş, kütlə qarşısında şah günahlarını etiraf etmişdir. Mərasimin məntiqinə görə, şahın vəzifəsi xalqa ədalətlə xidmət etmək olmalıdır (6, s. 20). Bu adət haqqında M. Allahverdiyev də XI əsr

müəllifi Nizamülmülkə və Y.V.Çəmənzəminliyə əsaslanaraq məlumat vermişdir (2, s. 19, 20).

"Xanbəzəmə" mərasimi bir çox xüsusiyyətlərinə görə, qeyd olunan bu qədim adətə çox yaxındır. Ədalətsiz işlərinə görə saxtakar şah cəzalanır. "Xanbəzəmə" mərasimində də pis işləyən və düşünülməmiş əmrlər verən şah taxtdan salınır. "Novruz" mərasimində "haqq-ədalət", "bərabərlik" anlayışları əsas yer tutduğundan xalq da bu məntiqə uyğun olaraq ədalətli şah görmək istəyir. Ona görə ədalətsiz şah taxtdan salınır.

Uzaq keçmişdə Naxçıvanın "Qızlar bulağı"nda da ayin və mərasimlər icra edilmişdir. Mərasimlə bağlı yaranmış "Qızlar bulağı" adlı rəqs havası Naxçıvan və onun yaşayış məntəqələrində ötən əsrin birinci yarısınadək ifa olunmuşdur.

Bu şənlik musiqisi bəzi ahıl və qocaların yaddaşında indi də xatırlanır. Sənətşünaslıq doktoru Kamal Həsənovun yazdığına görə Əhəd Əliyev "Qızlar bulağı" oyun havası əsasında özünün "On dörd nömrə" rəqs melodiyasını yaratmışdır (7, s. 34). Y.V.Çəmənzəminli isə eramızdan əvvəl Azərbaycanda yaşamış tayfa və qəbilələrin həyat tərzi, adət-ənənəsi, inam və etiqadları əsasında yazdığı eyni adlı tarixi romanında "Qızlar bulağı"nda keçirilən mərasimlərdən bəhs edir və oxunan nəğmələrdən nümunələr verir. Bunlardan birində deyilir:

*Gəldik çeşməyə,*
*Sudan içməyə,*
*Ağca daşlara,*
*Təzim etməyə* (5, s. 449).

Azərbaycanda "Qızlar bulağı" adlı yerin Naxçıvanda olduğu məlumdur. Nəğmədən görünür ki, bulaqdakı "ağca daşlara" təzim edilib.

Doğrudan da "Qızlar bulağı"nın ağ rəngli qaya və daşları keçmişdə inam və etiqad bəslənən yer olub. Bura indi də səfalı təbiətinə, saf və sərin suyuna görə məşhurdur. Folklor və etnoqrafik materialların araşdırılması, aparılan müşahidələr göstərir ki, çox uzaq olmayan dövrlərdə Naxçıvanın Sarvanlar məhəlləsində də şənlik mərasimi keçirilib. Mərasim nəğməsində deyilir:

*Gəl gedək beləsinə,*
*Sarvanlar məhləsinə,*
*Gündə qurban kəsərəm,*
*Gözlərin giləsinə.*

*Kərdiyə kal kahlaram,*
*Dibinə su bağlaram,*
*Eşitsəm yarım gəlir*
*Yastığı qucaqlaram.*

Bayatı formalı bu şənlik nəğməsinin "Çit tuman" adlı rəqs forması da məlumdur. Rəqs qadınlar tərəfindən icra olunur, oxunan nəğmənin hər bəndindən sonra aşağıdakı beyt nəqarət şəklində təkrar edilir:

***Sarı yaylıq, sarı çəpkən,***
***Badamı çit tuman.***

Mütəxəssislərin fikrincə, nəğmənin rəqs forması XIX əsrin ikinci yarısına aiddir (7, s. 51).

Ümumiyyətlə, qısa araşdırmalar göstərir ki, nəzərdən keçirilən əmək və mərasim nəğmələrində Naxçıvana, onun bölgələrinə bağlılıq çoxdur. Bunların bəziləri regionun keçmiş əmək və təsərrüfat həyatı ilə bağlı xüsusiyyətləri, adət-ənənələri, inam və görüşləri səciyyələndirir.

**Bəzi mərasim nəğmələri də mövsüm, və məişətlə bağlı regional cəhətləri əks etdirir. Belə dəyərli poetik örnəklər bölgə ilə bağlı etnik-milli düşüncədən doğan bədii təfəkkürün şifahi yaradıcılıq nümunələridir.**

**• Yusif SƏFƏROV,**
***filologiya elmləri doktoru***

## Ədəbiyyat

1.Abdulla B. Azərbaycan mərasim folkloru, Bakı, 2005.
2.Allahverdiyev M. Azərbaycan xalq teatrı tarixi, Bakı, 1978.
3.Azərbaycan ədəbiyyatı tarixi, Bakı, 1960.
4.Azərbaycan folkloru antologiyası, Naxçıvan folkloru, Bakı, 1994.
5.Çəmənzəminli Y.V. Romanları. Qızlar bulağı, Bakı, 1968.
6.Daimi Ç. "Novruz" mərasiminin mifoloji və tarixi qaynaqları, "Folklor və etnoqrafiya" jurn., 2005, N 1.
7.Həsənov K. Qədim Azərbaycan xalq rəqsləri, Bakı, 1983.
8. Səfərov Y. Azərbaycan folklorunda tarixilik, Bakı, 2005.